## 22.05.2019
## Əczaçı -orta

1. "Əczaçılığın menecmenti" sözünün mənası necə izah olunur?

A) idarəetmə prinsipləri
B) yeni təşkilatların yaranma üsulları
C) fəaliyyət dairələrinin genişlənməsi
D) digər əczaçılıq kompaniyaları ilə müqavilələrin bağlanma üsulları
E) konkret sahələrə ayrılma

"Əczaçılq menecmenti" sözü müxtəlif funksional prosesləri özündə birləşdirərək, vahid idarəetməni nəzərdə tutur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.3

2. Bunlardan hansı əczaçılığın metodologiyasına daxil deyildir?

A) reabilitasiya üsulları
B) deontologiya
C) menecment
D) loqistika
E) psixologiya

Əczaçılıq işinin təşkili və iqtisadiyyati özündə əczaçılığın tarixini, deontologiyanı, menecmenti,psixologiyanı, logistika və marketinqi birləşdirir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.3

3. "Əczaçılıq yardımı" anlayışı nəyi ifadə edir?

A) həkim - əczaçı - pasient arasındakı qarşılıqlı münasibəti
B) daha çox təşkilatların yaradılmasını
C) insanların hansı xəstəliklərə daha tez yoluxmasını
D) ətraf mühitin əhaliyə təsirini
E) tələb və ehtiyacların ödənilməsi üçün konkret differensləşməni

"Əczaçılıq yardimi" konsepsiyasının əsas fərqləndirici cəhəti həkim - əczaçı – pasient arasındakı qarşılıqlı münasibətlərin yeni növüdür.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.8.

4. Dərman vasitələri ilə davranış sahəsində dövlət tənzimlənməsinin üsulları hansı hüquqi sənəddə öz əksini tapmışdır?

A) "Dərman vasitələri haqqında" qanunda

SNSK AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

B) BMT-nin 1961-ci il tarixli Vahid Konsepsiyasında
C) “Əhalinin sağlamlığının qorunması haqqında” qanunda
D) Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 1998- ci iI 98 saylı qərarında
E) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007- ci il 108 saylı qərarında

Respublikamızın əczaçılıq sisteminin əməli fəaliyyətinə təkan verən vacib sənədlərdən biri olan “Dərman vasitələri haqqında” qanunda dərman vasitələri ilə davranışın tənzimlənməsi haqqında bir sıra göstərişlər verilmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.15.

5. Əhalinin sağlamlığının qorunmasının əsasları hansı hüquqi sənəddə tənzimlənmişdir?

A) Azərbaycan Respublikasının Konstitusiyasında
B) Azərbaycan Respublikasının "Vergi məcəlləsi"ndə
C) Azərbaycan Respublikasının "Əmək məcəlləsi"ndə
D) "Standartlaşma haqqında" qanunda
E) "Dərman vasitələri haqqında” qanunda

Əhalinin sağlamlığının qorunmasının əsasları 12 noyabr 1995- ci ildə təsdiqlənmiş Azərbaycan Resublikasının Konstitusiyasında (2- ci bölmə, 41- ci maddə) öz əksini tapmışdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.10.

6. Yeni iqtisadi şəraitdə səhiyyə sistemini formalaşdıran "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununun qüvvəyəminmə tarixi hansıdır?

A) 26.06.1997-ci il
B) 28.01.1999-cu il
C) 12.11.1995-ci il
D) 22.12.2011-ci il
E) 01.12.2005-ci il

Yeni iqtisadi şəraitdə respublikada əhalinin sağlamlığının qorunmasının hüquqi normaları 26.06.1997-ci ildə qanun şəklində hazırlanmışdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.11.

7. "İcbari sığorta üzrə sığorta məbləğinin və sığorta haqqının ödənilməsi" qaydalarının müəyyənləşdirilməsi hansı hüquqi sənəddə öz əksini tapmışdır?

A) "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda
B) "Dərman vasitələri haqqında" qanunda
C) Azərbaycan Respublikasının Konstitusiyasında
D) Azərbaycan Respublikasının "Vergi məcəlləsi"ndə
E) Azərbaycan Respublikasının "Standartlaşma haqqında" qanununda

SUSI.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Əhalinin sağlamlığının qorunması sahəsində qanunvericiliyə görə, dövlətin əsas vəzifələrindən biri də icbari sığorta üzrə sığorta məbləğinin və sığorta haqqının ödənilməsi qaydasının müəyyənləşdirilməsidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.12.

8. Orijinal dərman vasitələrinin analoqları necə adlanır?

A) generiklər
B) substansiyalar
C) prekursorlar
D) təsiredici maddələr
E) biotexnoloji mənşəli maddələr

Orijinal dərman vasitələrinin analoqları (generiklər) – orijinal dərman vasitələrinə müstəsna patent hüquqlarının müddəti bitdikdən sonra digər istehsalçılar tərəfindən həmin tərkibdə, dozada və formada istehsal edilmiş dərman vasitələridir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.16.

9. Əgər dərman vasitəsinin istifadəsi üzrə təlimatda onun əlavə təsiri barəsində bəyan edilməmiş məlumatlar müəyyən edilərsə, hansı idarə onun tətbiqini qadağan etmək huququna malikdir?

A) müvaviq icra hakimiyyəti orqanı
B) farmakopeya komitəsi
C) Nazirlər Kabineti
D) Respublika Sanitar-Karantin Nəzarət İdarəsi
E) Əhalinin Sosial Müdafiə Nazirliyi

Dərman vasitələri ilə davranışın tənzimlənməsi üçün müvafiq icra hakimiyyəti orqanının vəzifələrindən biri dərman vasitələrinin istifadəsi üzrə təlimatlarda onların əlavə təsiri, digər dərman vasitələri ilə qarşılıqlı əlaqəsi barədə istehsalçı tərəfindən bəyan edilməmiş məlumatlar müəyyən edildikdə onların tətbiqini qadağan etməkdən ibarətdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.20.

10. Bunlardan hansı Analitik Ekspertiza Mərkəzinin vəzifəsi xaricindədir?

A) tibbi texnikanın qeydiyyatını aparmaq
B) dərman vasitələrinin qeydiyyatını aparmaq
C) dərman vasitələrinin keyfiyyətinə nəzarət etmək
D) dərman vasitələrinin ödənişli əsaslarla laborator müayinəsini həyata keçirmək
E) dərman vasitələrinin idxalına nəzarət etmək

SUSP.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

2007- ci ildə təşkil olunmuş Analitik Ekspertiza Mərkəzinin vəzifələri bunlardır: dərman vasitələrinin qeydiyyatını və təkrar qeydiyyatını təşkil etmək, dərman vasitələrinin təhlükəsizliyi və keyfiyyətinə nəzarət etmək, hüquqi və fiziki şəxslərin müraciətlərinə əsasən, ödənişli əsaslarla dərman vasitələrinin laborator müayinəsinin aparılmasını həyata keçirmək, Azərbaycan Respublikası ərazisində onların idxalına nəzarət etmək.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.23.

11. Respublika Sanitar -Karantin Nəzarəti İdarəsinin vəzifəsi nədən ibarətdir?
A) bioloji aktiv əlavələrə resenziya verməkdən
B) MPM-i dərman vasitələri ilə təchiz etməkdən
C) tibbi avadanlıqlara olan tələbatı müəyyən etməkdən
D) tbbi texnikanın qeydiyyatını aparmaqdan
E) qeydiyyatdan keçən dərman vasitərinin reyestrini aparmaqdan

Respublika Sanitar- Karantin Nəzarəti İdarəsi bioloji aktiv əlavələrə, gigiyenik vasitələrə resenziya verir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.24.

12. Lisenziya almaq üçün verilən qərar hansı müddət ərzində qəbul edilməlidir?
A) 15 gündən gec olmamaqla
B) 1 həftə içində
C) 10 gün ərzində
D) 30 gündən gec olmamaqla
E) 45 gün ərzində

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən baxılan sənədlərdə imtina üçün əsas olmadıqda qeydə alındığı gündən başlayaraq 15 gündən gec olmamaqla lisenziya verilməsi haqqında qərar qəbul edilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.27.

13. Lisenziyanın fəaliyyəti dayandırıldıqda, qəbul olunmuş qərar haqqında məlumat hansı orqana verilməlidir?
A) dövlət vergi xidməti orqanına
B) sanitar xidməti orqanına
C) məhkəməyə
D) yanğından mühafizə orqanına
E) Analitik Ekspertiza Mərkəzinə

Lisenziyanın fəaliyyətinin dayandırılmasına səbəb olan hallar olduqda, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən qərar qəbul edilir.Məlumat lisenziya sahibinə və dövlət vergi xidməti orqanına verilir.

SHSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.29.

14. "Dərman vasitələrinin dövlət qeydiyyatına alınması və reyestrin aparılma qaydaları" hansı qanunvericilikdə təsdiqlənmişdir?

A) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 108 saylı qərarında
B) Azərbaycan Respublikası Prezidentinin 528 saylı fərmanında
C) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 sentyabr tarıxli fərmanında
D) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 38 saylı qərarında
E) Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 180 saylı əmrində

Azərbaycan Respublikasında istehsal olunan və Azərbaycan Respublikasına idxal olunan dərman vasitələrinin dövlət qeydiyyatına alınması Nazirlər Kabinetinin 2007- ci il 13 iyul 108 saylı qərarı ilə təsdiqlənmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.31.

15. Aşağıdakı dərman vasitələrindən hansı dövlət qeydiyyatına alınmır?

A) ekstemporal dərman vasitələri
B) orijinal dərman vasitələri
C) generik dərman vasitələri
D) dövlət qeydiyyatı bitmiş dərman vasitələri
E) dərman vasitələrinin istehsalında təsiredici maddə kimi istifadə olunan dərman substansiyaları

Dövlət qeydiyyatından keçmiş dərman vasitələri əsasında həkimin resepti üzrə aptek təşkilatlarında hazırlanan ekstemporal dərman vasitələri dövlət qeydiyyatına alınmır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.32.

16 . Hansı dərman vasitələri dövlət qeydiyyatına alınmalıdır?

A) dərman vasitələrinin yeni kombinasiyaları
B) sərgidə nümayiş etdirilən dərman vasitələri
C) fövqəladə hallarda istifadə üçün nəzərdə tutulan dərman vasitələri
D) kliniki sınaqlarda istifadə edilən dərman vasitələri
E) aptek təşkilatlarında hazırlanan fərdi dərman vasitələri

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanununa görə, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin yeni kombinasiyaları dövlət qeydiyyatına alınmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.31.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

17. Göstərilən variantlardan hansı dərman vasitələrinin dövlət qeydiyyatının ilkin ekspertizasını əhatə edir?

A) sənəd və nümunələrin qəbulu
B) dərman vasitələrinin laborator sınaq nəticələrinin qiymətləndirilməsi
C) NTS sınaqlarının qiymətləndirilməsi
D) klinik farmakotoksikoloji sınaqların nəticələrinin qiymətləndirilməsi
E) ixtisaslaşdırılmış ekspertizanın hesabat göstəricilərinin dəyərləndirilməsi

Dəyəri ödənildikdən sonra qəbul olunmuş sənədlərin və nümunələrin ilkin ekspertizası həyata keçirilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.33.

18. Müstəqil Dövlətlər Birliyinin imzaladığı "Saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında saziş" də aparılan tədbirlər siyahısına hansı göstərici daxil edilməmişdir?

A) dövlət qeydiyyatına alınmayan dərman vasitələrinin siyahısını araşdırmaq
B) dərman vasitələrinin dövriyyəsini tənzimləyən normativ - hüquqi aktların beynəlxalq standartlara uyğunlaşdırılması
C) saxta dərman vasitələrinin satışı əsnasında istifadə edilən gizlətmə hallarının aşkarlanması
D) saxta dərman vasitələrinin aşkarlanması üçün metodiki tövsiyələrin işlənib hazırlanması
E) saxta dərman vasitələrinin aşkarlanması üçün dərman vasitələrinə qoruyucu nişanların verilməsi

Bu sazişdə aşağıdakı tədbirlərin həyata keçrilməsi razılaşdırılmışdır: dərman vasitələrinin dövriyyəsini tənzimləyən normativ- hüquqi aktları ÜST- ün tövsiyyələrinə və beynəlxalq standartlara görə uyğunlaşdırmaq, saxta dərman vasitələrinin nəqli və satışı əsnasında gizlətmə hallarını aşkar etmək, bu məqsədlə metodiki tövsiyələri işləyib hazırlanmaq və qoruyucu nişandardan istifadə etmək.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.51.

19. Dərman vasitələrinin keyfiyyətinin, səmərəliliyinin və təhlükəsizliyinin təmini üçün qəbul olunmuş qanun hansıdır?

A) "Texniki tənzimləmə haqqında" qanun
B) "Dərman vasitələri haqqında" qanun
C) "Standartlaşma haqqında" qanun
D) "Əhalinin sağlamlığının qorunması haqqında" qanun
E) "Sahibkarlıq fəaliyyəti haqqında" qanun

01.07.2003- cü ildə qəbul edilmiş "Texniki tənzimləmə haqqında" qanun dərman vasitələrinin keyfiyyətinin, səmərəliliyinin və təhlükəsizliyinin təmini sisteminin formalaşmasına böyük təkan vermişdir.

SUSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.50.

20. Bazara daxil olan və böyük mənfəət gətirmək məqsədi güdən mallar necə adlanır?

A) strateji mallar
B) əsas mallar
C) yeni mallar
D) ənənəvi mallar
E) unikal mallar

Bazara daxil olan mallar strateji mallar olub, gəlir əldə etmək məqsədi güdür, yəni yeni struktur və yeni təsir mexanizminə görə fərqlənən bu dərman vasitələri ilk tətbiq mərhələsində az gəlir gətirir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.542.

21. Bunlardan hansı əmtəə siyasətinin istiqamətlərinə aid edilmir?

A) məhsulun geniş reklam edilməsi
B) məhsulun keyfiyyətinin artırılması
C) məhsulun rəqabətə davamlılığının təmin edilməsi
D) yeni əmtəələrin tətbiq edilməsi
E) məhsulun yeni qablaşdırılma üsullarının hazırlanması

Əmtəə siyasətinin əsas istiqamətlərinə bunlar aid edilir: istehsal olunan məhsulun keyfiyyətinin artırılması, onun rəqabətə davamlılığının təmin edilməsi, əmtəələrin həyat dövrünün analizi, yeni əmtəələrin və qablaşdırma üsullarının tətbiqi.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.533.

22. Bunlardan hansı mal çeşidlərinin marketinq xarakteristikasına daxil edilmir?

A) davamlılıq
B) genişlik
C) tamlıq
D) dərinlik
E) harmoniklik

Təşkilatların mal çeşidləri aşağdakı marketinq xarakteristikalarına əsasən aparılır: genişlik, tamlıq, dərinlik və harmoniklik.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.536.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

23. Bunlardan işığa daha həssas olan dərman hansıdır?

A) gümüş - nitrat
B) kalsium xlorid
C) $B_{12}$ vitamini
D) fenol
E) antibiotiklər

İşığa daha həssas olan dərmanlar sırasna birinci növbədə gümüş- nitrat aid edilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.109.

24. Kalium asetat poroşoku xarici mühitin hansı amilinin təsirinə daha tez məruz qalır?

A) rütubətə
B) işığa
C) yüksək temperatura
D) aşağı temperatura
E) ətraf mühitin qazlarına

Kalium asetat poroşoku rütubətə həssas olan hiqroskopik maddələr sırasna aid edilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.109.

25. Parçalandıqda uçucu məhsul alınan dərman vasitəsi hansıdır?

A) hidrogen peroksidi
B) maqnezium sulfat
C) karbol turşusu
D) ammonyak
E) formaldehid

Hidrogen peroksidi parçalandıqda uçucu məhsul alınan dərman vasitələri sırasına daxildir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.110.

26. Hansı göstərici topdansatış realizasiyanın qaydalarına görə təşkil edilmiş "Dərman vasitələrinin qaytarılması" şöbəsinin vəzifəsiinə daxil deyildir?

A) malın farmakoloji xüsusiyyətlərinə görə bölüşdürülməsi
B) saxta dərman vasitələrinin aşkarlanması
C) müqavilə öhdəliklərinin pozulması
D) mal verənlərə iddiaların irəli sürülməsi
E) malın dəyər qiyməti ilə uzlaşmaması

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 01 saylı qərarı ilə "Dərman vasitələrinin topdan satışına olan tələblər" təsdiqlənmişdir. Qərara görə, saxta malların

DİNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

aşkarlanması, müqavilə öhdəliklərinin pozulması, qiymətlərin uzlaşmaması və mal verənə iddianın irəli sürülməsi xüsusi şöbənin vəzifəsinə aid edilməlidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.89.

27. Hansı otaq inzibati və xidmət sahəsinə aid deyildir?

A) ehtiyat otağı
B) müdirin otağı
C) operativ uçot otağı
D) tualet
E) qarderob

Təsdiqlənmiş tələblərə görə,inzibati və xidmət sahələrinə aiddir: müdirin otağı, operativ uçot otağı, tualet və qarderob.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.91.

28. Bunlardan hansı anbar rəhbərliyinə olan tələblər sırasına daxil deyil?

A) dərman vasitələrinin ayrı-ayrı qrupları üçün güzəştli malların buraxılmasını həyata keçirmək
B) dərman vasitələrinə olan tələb və təklifləri öyrənmək
C) dərman vasitələrinin hərəkəti haqqında hesabatı tərtib etmək
D) dərman vasitələrinin keyfiyyətinə nəzarət etmək
E) qüvvədə olan normativ sənədlərin tələblərinin yerinə yetirilməsini təmin etmək

Azərbaycan Respublikası Səhiyyə Nairliyinin Kollegiyasının 01 saylı qərarına görə, anbar rəhbərliyinə aşağdakı tələblər irəli sürülmüşdür : dərman vasitələrinə olan tələb və təklifləri öyrənmək, dərman vasitələrinin hərəkəti haqqında hesabatı tərtib etmək, malların keyfiyyətinə nəzarət etmək, qüvvədə olan normativ sənədlərin tələblərinin yerinə yetirilməsini təmin etmək.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.92.

29. Tez xarab olan malların keyfiyyətinin optimal saxlanma müddəti nə qədərdir?

A) 6 saatdan 96 saata qədər
B) 6 saatdan 12 saata qədər
C) 12saatdan 30 günə qədər
D) 24 saatdan 96 saata qədər
E) 24 saatdan 24 günə qədər

Mallar keyfiyyətinin saxlanması müddətə görə 4 qrupa bölünür: tez xarab olanlar (6 saatdan 96 saata qədər), qısa müddətdə saxlanılanlar (12 saatdan 30 günə qədər), uzun müddət məhdud yararlılıq müddətinə malik olanlar (2 ilə qədər), istifadə müddəti çox olanlar (2 ildən çox).

SHSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”.  Bakı-2013, səh.94.

30.  Qısa müddətdə saxlanılan malların keyfiyyətinin optimal saxlanma müddəti nə qədərdir?

A) 12 saatdan 30 günə qədər
B) 6 saatdan 96 saata qədər
C) 6 saatdan 48 saata qədər
D) 12 saatdan 48 saata qədər
E) 24 saatdan 30 günə qədər

Mallar  keyfiyyətinin saxlanması müddətə görə 4 qrupa bölünür: tez xarab olanlar (6 saatdan 96 saata qədər), qısa müddətdə saxlanılanlar (12 saatdan 30 günə qədər), uzun müddət məhdud yararlılıq müddətinə malik olanlar (2 ilə qədər), istifadə müddəti çox olanlar (2 ildən çox).

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”.   Bakı-2013,  səh.94.

31.  Uzun müddət məhdud yararlılıq vaxtına malik olan malların keyfiyyətinin optimal saxlanma müddəti nə qədərdir?

A) 2 ilə qədər
B) 3 ilə qədər
C) 4 ilə qədər
D) 1 ilə qədər
E) 2 il 6 aya qədər

Mallar  keyfiyyətinin saxlanması müddətə görə 4 qrupa bölünür: tez xarab olanlar (6 saatdan 96 saata qədər), qısa müddətdə saxlanılanlar (12 saatdan 30 günə qədər), uzun müddət məhdud yararlılıq müddətinə malik olanlar (2 ilə qədər), istifadə müddəti çox olanlar (2 ildən çox).

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”.  Bakı-2013, səh.94.

32.  Xəstəxana aptekləri  MPM-in nəzdində  hansı şəraitdə təşkil oluna bilər?

A) ən azı 100 çarpayısı olan MPM-in nəzdində
B) ən azı 200 çarpayısı olan MPM-in nəzdində
C) ən azı 300 çarpayısı olan MPM-in nəzdində
D) ən azı 400 çarpayısı olan MPM-in nəzdində
E) ən azı 500 çarpayısı olan MPM-in nəzdində

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əmrinə görə, stasionarda müalicə olunan xəstələrə əczaçılıq xidmətini  yaxşılaşdırmaq məqsədilə ən azı 100  çarpayıya malik, büdcə hesabına olan müalicə profilaktika müəssisələrinin nəzdində xəstəxana aptekləri təşkil edilir.

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.233.

SMSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

33.  MPM-in şöbələrinə narkotik dərman vasitələrinin buraxılmasında cari təlabatın ölçüsü nə qədərdir?

A) 3 günlük ehtiyat
B) 5günlük ehtiyat
C) 7günlük ehtiyat
D) 10günlük ehtiyat
E) 1günlük ehtiyat

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 57 saylı qərarına görə, MPM- in şöbələrində narkotik vasitələrin ehtiyatı 3 günlük tələbatdan çox olmamalıdır.

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  "Əczaçılığın idarəolunması və iqtisadiyyatı" . Bakı-2013, səh.187.

34.  MPM-in şöbələrinə zəhərli dərman vasitələrinin buraxılmasında cari  tələbatın ölçüsü nə qədərdir?

A) 5 günlük
B) 1 günlük
C) 3  günlük
D) 7 günlük
E) 2 həftəlik

Azərbaycan Resppublikası Səhiyyə Nazirliyinin 5 saylı əmrinə əsasən, MPM- in şöbələrində zəhərli dərman vasitələrinin ehtiyatı 5 günlük tələbatdan çox olmamalıdır.

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013,  səh.235.

35.  MPM-in şöbələrində adi  təsirli dərmanların neçə günlük ehtiyatı yaradılmalıdır?

A) 10 günlük
B) 1günlük
C) 3 günlük
D) 5 günlük
E) 2 həftəlik

MPM- in şöbələrinə dərman vasitələrinin buraxılmasında cari tələbatın ölçüsü əsas götürülür. Bunlardan adi təsirə malik dərman vasitələrinin 10 günlük ehtiyatı yaradılmalıdır.

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  "Əczaçılığın idarəolunması və iqtisadiyyatı".  Bakı-2013, səh.235.

36.  Xəstəxana apteklərində bu dərmanlardan hansının əşya- miqdar uçotu aparılır?

A) atropin
B) erqometrin

SNSI.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

C) pilokarpin
D) furadonin
E) ibuprofen

MPM- in apteklərində əşya- miqdar uçotu aparılan dərman vasitələrinin siyahıısı təsdiqlənmişdir. Atropin sulfat bu siyahıya daxildir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.238.

37. MPM-in apteklərində "Fentanil" -in ehtiyatı nə qədər olmalıdır?

A) aylıq tələbatdan çox olmamalıdır
B) 3 günlük
C) 1 həftəlik
D) 5 günlük
E) 14 günlük

MPM- in aptek şöbələrində narkotik vasitələrin ehtiyatı bir aylıq tələbatdan çox olmamalıdır." Fentanil" narkotik dərmanlar siyahısına aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.185.

38. MPM-in apteklərində "Morfin hidroxlorid"in ehtiyatı nə qədər olmalıdır?

A) aylıq tələbatdan çox olmamalıdır
B) 3 günlük
C) 5 günlük
D) 14 günlük
E) 7 günlük

MPM- in aptek şöbələrində narkotik vasitələrin ehtiyatı bir aylıq tələbatdan çox olmamalıdır. "Morfin hidroxlorid" narkotik dərmanlar siyahısına aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.185.

39. MPM- də xüsusi resept nüsxələrinin ehtiyatı nə qədər olmalıdır?

A) aylıq tələbatdan çox olmamalıdır
B) 2 həftəlik
C) 2 aylıq
D) 3 aylıq
E) 6 aylıq

MPM- də narkotik vasitələr üçün daxil olan xüsusi resept nüsxələri xüsusi komissiya tərəfindən qəbul olunur və onların ehtiyatı 1 aylıq tələbatdan çox olmamalıdır.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.187.

40. MPM-in aptekinin assistent otağında "Promedol" un neçə günlük ehtiyatı olmalıdır?

A) 5günlük ehtiyatı
B) 1 günlük ehtiyatı
C) 3 günlük ehtiyatı
D) 7 günlük ehtiyatı
E) 2 həftəlik ehtiyatı

MPM- in aptekinin assistent otağında narkotik vasitələrin ehtiyatı 5 günlük tələbatdan çox olmamalıdır."Promedol" narkotik dərmanlar siyahısına aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.239.

41. "Narkotik vasitələrin və psixotrop maddələrin mədaxili və məxaricinə dair hesabat kitabı"nın saxlanma müddəti nə qədərdir?

A) 5 il
B) 1 il
C) 3 il
D) 2 il
E) 6 ay

Narkotik vasitələrin və psixotrop maddələrin mədaxili və məxaricinə dair hesabat əməliyyatları nömrələnmiş, qaytanlanmış və yuxarı təşkilat rəhbərinin imzası, möhürü ilə təsdiq olunmuş xüsusi kitabda aparılır ki, bunun da saxlanma müddəti 5 ildir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.239.

42. Azərbaycan Respublikasının "Sahibkarlıq fəaliyyəti haqqında" Qanunu ilkin sənəd kimi nə zaman təsdiqlənmişdir?

A) 15 dekabr 1992-ci ildə
B) 20 oktyabr 1996-cı ildə
C) 25 iyun 1997-ci ildə
D) 12 noyabr 1995-ci ildə
E) 21 may 1998-ci ildə

"Sahibkarlıq fəaliyyəti haqqında " (15 dekabr 1992-ci il) Azərbaycan Respublikasının qanunu sahibkarlıq fəaliyyətinin təşkilini, əsas vəzifələrini, subyektlərini və fəaliyyət qaydalarını tənzimləyir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.123.

SMSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

43. Bunlardan hansı tibbi təyinatlı mallar qrupuna aiddir?

A) pambıq
B) qızdırıcı
C) şina
D) dezodorant
E) diş pastası

Aptek təşkilatlarının əsas vəzifəsi əhalini dərman vasitələri və digər aptek çeşidi malları ilə təmin etməkdən ibarətdir. Bu mallardan pambıq tibbi təyinatlı mallar qrupuna aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.129.

44. Bunlardan hansı xəstəyə qulluq vasitələri qrupuna aiddir?

A) qızdırıcı
B) qoltuqaltı
C) damcıtökən
D) oksigen balışı
E) tibbi qayçı

Aptek təşkilatlarının əsas vəzifəsi əhalini dərman vasitələri və digər aptek çeşidi malları ilə təmin etməkdən ibarətdir. Göstərilənlərdən qızdırıcı xəstəyə qulluq vasitəsi sayılır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.129.

45. Bunlardan hansı tibbi alət və cihazlar qrupuna aiddir?

A) tonometr
B) bez
C) bint
D) qoltuqağacı
E) banka

Aptek təşkilatlarının əsas vəzifəsi əhalini dərman vasitələri və digər aptek çeşidi malları ilə təmin etməkdən ibarətdir. Tonometr tibbi alət və cihazlar qrupuna daxil edilmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.129.

46. Bunlardan hansı sağlam həyat tərzinin təmin edilməsi üçün nəzərdə tutulmuşdur?

A) trenajor
B) linza
C) mineral su
D) şampun
E) dezodorant

SHCK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Sağlam həyat tərzinin təmin edilməsi üçün tibbi texnika mağazalarında trenajorların satışı həyata keçirilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarov "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.129.

47. Reseptsiz buraxılan dərman vasitələri siyahısına Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən necə nəzarət edilir.

A) siyahı hər 5 ildən bir yoxlanılır
B) siyahı hər 3 ildən bir yoxlanılır
C) siyahı hər 7 ildən bir yoxlanılır
D) siyahı hər 10 ildən bir yoxlanılır
E) siyahı hər il yoxlanılır

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əmrinə əsasən, aptekdən reseptsiz buraxılmasına icazə verilən dərmanlar siyahısına hər 5 ildən bir baxılmalı və hər il əlavələr nəşr edilməlidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.230.

48. Aptekin logistik funksiyası dedikdə nə başa düşülür?

A) malın idarə olunması
B) dərmanın resept əsasında hazırlanması
C) dərman vasitəsinin satışının həyata keçirilməsi
D) informasiyanın vaxtında verilməsi
E) malın qiymət siyasətinin müəyyən edilməsi

Əhaliyə xidmət edən aptek təşilatlarının əsas funksiyalarından biri sayılan logistik funksiyaya mal ehtiyatlarının qəbulu, saxlanması və idarə olunması aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.131.

49. Aptekin marketinq funksiyası dedikdə nə başa düşülür?

A) mal çeşidlərinin müəyyən edilməsi
B) mal ehtiyatının qəbulu
C) malın keyfiyyətinə düzgün nəzarətin edilməsi
D) malın idarə olunması
E) malın realizasiyası

Aptekin marketinq funksiyası dedikdə mal çeşidləri, qiymət siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi başa düşülür.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.131.

SMSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

50. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 01 saylı qərarı nə vaxt qəbul edilmişdir?

A) 11.01.2018-ci ildə
B) 21.12.2009-cu ildə
C) 14.06.2011-ci ildə
D) 13.12.2006-cı ildə
E) 03.05.2007-ci ildə

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 01saylı qərarı 11 yanvar 2018- ci il tarixixndə qəbul edilmişdir. Qərar belə adlanır: " Aptek təşkilatlarına dair tələblər və aptek təşkilatlarından dərman vasitələrinin buraxılması qaydaları haqqında".

Ədəbiyyat : Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 01 saylı qərarı.

51. Dərman vasitələrinin dövlət qeydiyyatı hansı müddət ərzində qüvvədə olur?

A) 5 il
B) 3 il
C) 6 il
D) 8 il
E) 10 il

"Dərman vasitələrinin dövlət qeydiyyatına alınması və reyestrin aparılma qaydaları" na əsasən, dərman vasitələrinin dövlət qeydiyyatında olma müddəti 5 ildir.

Ədəbiyyat: Aərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 iyul tarixli 108 saylı qərarı.

52. Əgər müəssisədə çalışan işçilərin sayı 10 nəfərdən az olarsa, aptekin rəhbəri texniki təhlükəsizlik üçün hansı vasitələrdən istifadə edilməlidir?

A) bu işi əmrlə işçilərdən birinə həvalə etməlidir
B) əmək mühafizəsi xidməti üzrə mütəxəssis vəzifəsi təsdiq etməlidir
C) bu sahədə xidmət göstərən mütəxəssislərlə müqavilə bağlamalıdır
D) bu işi özü yerinə yetirməlidir
E) müəssisədə uyğun yerlərdən birində təlimat asmalıdır

Əməyin mühafizəsi xidmətinin yüksək səviyyədə təşkili üçün təşkilatda çalışan işçilərin sayından asılı olaraq, əmək mühafizəsi xidməti təşkil edilir. İşçilərin sayı 10 və daha az olan aptek təşkilatlarında aptekin rəhbəri bu işi əmrlə işçilərdən birinə həvalə etməlidir.
Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.255.

53. Bunlardan hansı istehsalat prosesi amillərindən sayılan fiziki amillərə aiddir:

A) temperatur
B) preparatlar
C) intellektuallıq
D) orqanizmin funksional sisteminə təsir edən proseslər
E) emosionallıq

İstehsalat prosesi amillərinə fiziki, kimyəvi, bioloji amillər daxildir. Temperatur – fiziki amillər qrupuna aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.256.

54. Bunlardan hansı istehsalat prosesinin bioloji amillərinə daxildir?

A) gərginlik
B) temperatur
C) hava cərəyanı
D) rütubətin çoxluğu
E) işıqlandırma

İstehsalat prosesi amillərinə fiziki, kimyəvi və bioloji amillər daxildir. Əməyin gərginliyi bioloji amillərə aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.256.

55. İş yerində təkrari təlimat nə vaxt aparılmalıdır?

A) məcburi olaraq hər 6 aydan bir
B) əmək mühafizəsi üzrə yeni məlumat təsdiqləndikdə
C) texnoloji proseslər dəyişdirildikdə
D) işçilər tərəfindən əmək təhlükəsizliyi qaydaları pozulduqda
E) nəzarət orqanları tələb etdikdə

İş yerində aparılan təlimatın proqramına uyğun olaraq, təkrari təlimat bütün işçilər üçün hər 6 aydan bir keçirilməlidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.261.

56. İstehsalat aptekində alınan təmizlənmiş su aseptik şəraitdə nə qədər müddətdə saxlanılmalıdır?

A) 3 sutka
B) 5 sutka
C) 10 gün
D) 6 saat
E) 1 həftə

Təmizlənmiş suyun alnması və saxlanılması aseptik blokda həyata keçirilir. Belə ki, təmizlənmiş su aseptik şəraitdə 3 sutkadan artıq olmamaqla saxlanılmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.163.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

57. Aseptik şəraitdə inyeksiya üçün su nə qədər müddətdə istifadəyə yararlıdır?

A) 24 saat müddətində
B) 36 saat müddətində
C) 48 saat müddətində
D) 1 həftə
E) 3 sutka

İnyeksiya üçün su təzə çəkilmiş halda istifadə ounur. Aseptik şəraitdə saxlanılmalıdır və 24 saat müddətində istifadəyə yararlıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.163.

58. Sterilizə olunmuş sanitar geyimlərin bikslərdə saxlanılma müddəti nə qədərdir?

A) 3 sutka
B) 5 sutka
C) 1 həftə
D) 2 həftə
E) 1 ay

Sanitar tələblərə görə, aptekin aseptik blokunda sanitariya geyimləri sterilizə olunur və bağlı bikslərdə 3 sutkadan çox olmamaqla saxlanılır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.164.

59. Əczaçı mütəxəssislər üçün formalaşdırılmış müasir tələblər üçün təşkil edilən müşavirə hansı ölkədə keçirilmişdir?

A) Kanadada
B) Amerikada
C) İngiltərədə
D) Yaponiyada
E) Rusiyada

1997- ci ildə ÜST tərəfindən Beynəlxalq Əczaçılıq Federasiyasının nümayəndələrinin iştirakı ilə gələcəyin əczaçılıq kadrlarının hazırlanması problemi üzrə Kanadanın Vankuver şəhərində müşavirə keçirilmişdir.
Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.265.

60. Aşağıdakı ştat vəzifələrindən hansı reseptura-istehsalat şöbəsi üçün nəzərdə tutulmamışdır?

A) mühasib
B) əczaçı-bakalavr
C) əczaçı

TUSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

D) qablayıcı
E) sanitar – yuyucu

RİŞ şöbəsi üçün şöbə müdiri və müavindən əlavə, əczaçı- bakalavr, orta təhsilli əczaçı, qablayıcı və sanitar- yuyucu ştatı nəzərdə tutulur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.169.

61. İntellektual nəzarət-kassa aparatlarından istifadə etməklə, hansı prosesin aparılmasına icazə verilmir?

A) Nəqd pulun limitdən artıq toplanmasına
B) pasientlərə xidmətin tezləşdirilməsinə
C) sorğunun tam təmininə
D) satış prosesinin cəlbediciliyinin artırılmasına
E) aptekin anbarında qalan malın miqdarının təyin edilməsinə

İntellektual nəzarət- kassa aparatlarından istifadə etməklə, pasientlərə xidmətin tezləşdirilməsi, sorğunun tam təmini, satış prosesinin cəlbeiciliyinin artırılması, aptekin anbarında qalan malın miqdarının təyin edilməsi və s. proseslər həyata keçirilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.171.

62. "Qarışdır alınsın" ifadəsinin ixtisar forması reseptdə necə göstərilməlidir ?

A) M.f.
B) D.S.
C) D.t.d.
D) S.
E) Q.s.

Resept blanklarında sözlərin yazılışı zamanı bir sıra ixtisarlara icazə verilir. "Qarışdır alınsın" sözlərinin ixtisar forması belə qəbul olunmuşdur: " M.f."

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.179.

63. "Reseptin yazılma tarixi" latın dilində necə adlanır?

A) inscriptio
B) praepasitio
C) ordination
D) invacatio
E) subscritio

Reseptin yazılma tarixi latın dilində "inscriptio" adlanır.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.177.

64. Reseptin "praescription" hissəsində hansı göstəriş verilir?

A) dərmanın hazırlanması və buraxılması haqqinda göstəriş
B) dərmanın qəbulu qaydası haqqında göstəriş
C) həkimin imzası
D) həkimin əczaçıya müraciəti
E) əsas və köməkçi maddələrin düzgün sıralanması

"Prescription" hissədə dərmanın hazırlanması və buraxılması haqqında həkimin verdiyi göstəriş əks etdirilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.178.

65. Reseptin "invacatio" hissəsində hansı əməliyyat əks etdirilir?

A) həkimin əczaçıya müraciəti
B) dərmanın hazırlanması texnologiyası
C) dərmanın buraxılması
D) dərmanın qəbulu
E) həkimin imzası

İnvacatio "müraciət" deməkdir. Bu hissədə "resipe" feli ixtisarla "Rp.:" şəklində verilir, həkimin əczaçıya olan müraciətidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.177.

66. Reseptdə"kökümsov gövdə" sözünün ixtisar forması necə yazlır?

A) rhiz .
B) rad.
C) sem.
D) sir.
E) fol.

"Kökümsov gövdə" ifadəsinin ixtisarla yazılışı belədir: "rhiz."

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.180.

67. Reseptdə "yığıntı" sözünün ixtisar forması necə göstərilir?

A) spec.
B) dil.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

C) fl.
D) fruct.
E) liq.

"Yığıntı" sözünün reseptdə icazə verilən yazılışı belədir: "spec."

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.180.

68. Reseptdə "məhlul" sözünün ixtisar forması necə göstərilir?

A) sol.
B) fl.
C) dec.
D) but.
E) inf.

"Məhlul" sözünün reseptdə icazə verilən ixtisar forması belədir: "sol."

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.180.

69. Dərman formasının təcili hazırlanması üçün həkim reseptdə hansı göstərişi qoymalıdır?

A) statim
B) siqna
C) verte
D) repete
E) bis

Dərman formasının xəstəyə təcili çatdırılması məqsədilə reseptin soldan yuxarı hissəsində "Statim" ifadəsi göstərilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.180.

70. Narkotik tərkibli dərmanların buraxılması üçün resept blankında hansı əlavə rekvizit olmalıdır?

A) reseptin seriya nömrəsi
B) reseptin yazılma tarixi
C) dərmanın buraxılması haqqında göstəriş
D) dərmanın qəbulu haqqında göstəriş
E) həkimin imzası

Reseptin əlavə rekvizitləri bunlardır: reseptin nömrəsi, seriyası, MPM-in dəyirmi möhürü, baş həkimin imzası və xəstəlik tarixinin nömrəsi.

SHSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.181.

71. "Alfetanil" yazılmış resept blankında bu göstəricilərdən hansı əsas rekvizit kimi əks etdirilir?

A) xəstənin yaşı
B) reseptin nömrəsi
C) reseptin seriyası
D) MPM-in dəyirmi möhürü
E) xəstəlik tarixinin nömrəsi

Xəstəyə narkotik vasitəyə aid resept yazıldıqda, mütləq əlavə rekvizitlər olmalıdır. Xəstənin yaşı reseptin əsas göstəricisidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.185.

72. Feldşer-mama məntəqəsinin müdiri vəzifəsində çalışan feldşer hansı dərmana resept yaza bilməz?

A) Etilmorfinə
B) Barbitala
C) İbuprofenə
D) Albendazola
E) Trimetoprimə

Feldşerlər feldşer- mama məntəqəsinin müdiri vəzifəsində işləyirsə, narkotik dərmanlar müstəsna olmaqla bütün dərmanlara resept yazmaq hüququna malikdirlər."Etilmorfin" narkotik təsirli olduğu üçün feldşer ona resept yaza bilməz.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.183.

73. "Pentazosin" yazılmış resept üçün (yazıldığı gündən) hansı etibarlılıq müddəti təsdiq edilmişdir?

A) 7 gün
B) 5 gün
C) 10 gün
D) 14 gün
E) 30 gün

"Pentazosin" psixotrop tərkibli dərman vasitəsi olduğu üçün resept yazıldığı gündən 7 gün ərzində etibarlı sayılır. (67 saylı qərar).

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.189.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

74."Omnopon" preparatı yazılmış reseptin yararlılıq müddəti nə qədərdir?

A) 5 gün
B) 7 gün
C) 10 gün
D) 14 gün
E) 30 gün

Bu preparat narkotik tərkibli dərman vasitəsi olduğu üçün resept yazıldığı gündən 5 gün ərzində etibarlı sayılır . (67 saylı qərar).

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.189.

75. "Klomifen tableti yazılmış reseptin yararlılıq müddəti nə qədərdir?

A) 2 ay
B) 30 gün
C) 7 gün
D) 10 gün
E) 5 gün

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 57 saylı qərarına görə, "Klomifen" tableti yazılmış reseptin yararlılıq müddəti 2 aydır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.189.

76. Barbituratlar üçün birdəfəlik buraxılma norması necə təsdiqlənmişdir?

A) 20 həb
B) 30 həb
C) 50 həb
D) 60 həb
E) 40 həb

Reseptlərin yazılması zamanı yuxugətirici dərmanların bir resept nüsxəsində yazılma normaları qəbul edilmişdir. Barbituratlar üçün bu norma 20 həb təşkil edir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.223.

77. Xroniki xəstələr üçün yuxugətirici dərmanlar hansı müddətə yazıla bilər?

A) 1 aylıq kurs müalicəsi üçün
B) 2 ayliq kurs müalicəsi üçün
C) 45 günlük
D) 6 aylıq
E) 3 aylıq

TNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Xroniki xəstələr üçün yuxugətirici dərmanlar 1 aylıq kurs müalicəsi üçün yazıla bilər. Belə halda reseptin üzərində “xüsusi təyinata görə”və MPM- in “resept üçün” möhürü olmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.223.

78. "Amobarbital" a yazılmış reseptin aptekdə saxlanılma müddəti nə qədərdir?

A) 1 il
B) 3 gün
C) 3 il
D) 3 ay
E) 5 il

Reseptlərin apteklərdə saxlanılma müddəti təsdiq edilmişdir. “Amobarbital” miqdari uçotu aparılan psixotrop maddə olduğu üçün ona yazılmış resept nüsxəsi aptekdə 1 il müddətində saxlanılmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.224.

79. Xəstəxanaların aptek şöbələrində narkotik vasitələrin ehtiyatı nə qədər olmalıdır?

A) aylıq tələbatdan çox olmamalıdır
B) iki aylıq tələbatdan çox olmamalıdır
C) 5 günlük tələbatdan çox olmamalıdır
D) 7 günlük tələbatdan çox olmamalıdır
E) 14 günlük tələbatdan çox olmamalıdır

Qəbul olunmuş əsasnaməyə görə, xəstəxana apteklərində narkotik vasitələrin ehtiyatı 1 aylıq tələbatdan çox olmamalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.238.

80. Xroniki xəstələrin müalicəsi üçün yazılmış reseptdə hansı əlavə göstərici olmalıdır?

A) “xüsusi təyinata görə”
B) “lazımdir”
C) “işarələyirəm”
D) “belə verilsin”
E) “uzun müddətə verilsin”

Reseptlərin əczaçılıq ekspertizasının IV mərhələsinə görə, xroniki xəstələr üçün yazılmış reseptin soldan yuxarı hissəsində “xüsusi təyinata görə” qeydiyyatı olmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.223.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

81. İstifadə edilmiş narkotik vasitələrə aid resept nüsxələri maddi-məsul şəxsin seyfində nə qədər müddət ərzində saxlanılmalıdır?

A) 5 il
B) 1 il
C) 2 il
D) 3 il
E) 4 il

Reseptlərin apteklərdə saxlanılma müddəti təsdiqlənmişdir . Belə ki, narkotik vasitələrə yazılmış resept nüsxələri aptekdə 5 il müddətində saxlanılmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.224.

82. Hansı dərmanın Azərbaycan Respublikasında dövriyyəsi qadağan olunmuşdur?

A) Metazosin
B) Alfetanil
C) Tebain
D) Pentazosin
E) Siklobarbital

Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələrin və psixotrop maddələrin I siyahısına görə (2005-ci il), "Metazosin" preparatının ölkəyə idxalı qadağandır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.680.

83. Hansı dərmanın Azərbaycan Respublikası ərazisində dövriyyəsinə məhdudiyyət qoyulmuşdur?

A) Pentobarbital
B) Pinazepam
C) Klonazepam
D) Diazepam
E) Ketazolam

Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan psixotrop vasitələrin II siyahısına görə (2005-ci il), "Pentobarbital" preparatının dövriyyəsi məhdudlaşdırılmışdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.683.

84. Hansı dərmanın dövriyəsi Azərbaycan Respublikasında nəzarət altındadır?

A) Nitrazepam

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

B) Sekobarbital
C) Amobarbital
D) Butalbital
E) Etriptamin

Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələrin III siyahısına görə (2005-ci il), "Nitrazepam"ın dövriyyəsi nəzarət altındadır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.684.

85. Miqdari uçotu aparılan psixotrop maddələrə resept yazdıqda hansı əlavə rekvizitə ehtiyac var?

A) MPM-in möhürünə
B) həkimin imzasına
C) reseptin yazılma tarixinə
D) xəstənin yaşına
E) dərmanın qəbul qaydasına

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 57 saylı qərarına əsasən, psixotrop maddələrə yazılmış resept nüsxəsində əlavə rekvizit olaraq MPM-in dəyirmi möhürü qoyulmalıdır.
Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.189.

86. Hansı psixotrop maddənin miqdarı uçotu aparılmır?

A) Barbital
B) Amobarbital
C) Butalbital
D) Pentobarbital
E) Siklobarbital

Nazirlər Kabinetinin 67 saylı qərarına görə, miqdari uçotu aparılan psixotrop maddələr bunlardır: "Amobarbital", "Butalbital", "Pentobarbital", "Siklobarbital".

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.189.

87. Təxirəsalınmaz tibbi yardım göstərmək üçün xəstəxananın qəbul şöbəsində psixotrop maddələrin neçə günlük ehtiyatı yaradılmalıdır?

A) 5 günlük
B) 3 günlük
C) 1 günlük
D) 7 günlük
E) 30 günlük

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Təxirəsalınmaz tibbi yardım göstərmək məqsədilə stasionarların qəbul şöbəsində psixotrop maddələrin 5 günlük ehtiyatının yaradılmasına icazə verilir (67 saylı qərara əsasən).

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.192.

88. Öz vəsifə və imzasını göstərmək şərtilə feldşer hansı zəhərli dərman preparatına resept yaza bilər?

A) $AgNO_3$-ın 2% -dən az olan məhluluna
B) $HgCl_2$-in məhluluna
C) Atropin sulfatın tozuna
D) Strixnin nitratın tozuna
E) Natrium arsenatın duzlarına

Feldşer öz vəzifə və imzasını göstərməklə, təcili yardım məqsədilə birdəfəlik yüksək dozadan artıq olmamaq şərtilə gümüş-nitratın 2%dən çox omayan məhluluna resept yaza bilər.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.195.

89. Aptekdə miqdarı hesabı aparılan zəhərli dərmanlara yazılmış tələbnamələr hansı müddət ərzində saxlanılmalıdır?

A) 3 il
B) 1 il
C) 5 il
D) 1 ay
E) 10 il

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 28.01.1999-cu il 05 saylı əmrinə əsasən, miqdari hesabı aparılan zəhərli dərmanlara aid tələbnamələrin aptekdə saxlanılma müddəti 3 ildir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.196.

90. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunu neçənci ildə qəbul edilmişdir?

A) 1999-cu ildə
B) 1996-cı ildə
C) 1995-ci ildə
D) 2003-cü ildə
E) 2005-ci ildə

Tibbi sığortanın tətbiqi əhalinin sosial müdafiəsinin əsasını təşkil edir. Bu məqsədlə respublikada 1999-cu ildə "Tibbi sığorta haqqında" qanun qəbul edilmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.197.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

91. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 38 saylı qərarına görə, imtiyazlı qruplara daxil olan xəstələrə bu dərman preparatlarından hansı verilmir?

A) Amobarbital
B) Neuleptil
C) Omnopon
D) Oksibral
E) Dianorm

Azərbaycan Respublikası ərazisində "Amobarbital" ın dövriyyəsi məhdudlaşdırıldığından o,imtiyazlı qruplara daxil olan xəstələr üçün dərman preparatlarının siyahısına daxil edilməmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.200.

92. Bunlardan hansı imtiyazlı şərtlərlə dərman alan bronxial astma xəstələrinə yazıla bilər?

A) xəstəliyin müalicəsi üçün vacib sayılan dərman maddələri
B) diuretik dərman maddələri
C) antasid maddələr
D) antihistamin maddələr
E) antidepressant maddələr

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 38 saylı qərarına görə, ambulator şəraitdə müalicə olunan, imtiyazlı şərtlərlə dərman preparatları alan bronxial astma xəstələrinə bilavasitə bu xəstəliyin müalicəsi üçün lazım olan dərmanlar yazıla bilər.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.201.

93. Göstərilən fərdi hazırlanmış dərman forması neçəyədir?

Rp.: Adonisidi 5 ml
Tincturae Valerianae
Tincturae Convallariae mayalis ana 15 ml
Tincturae Leonuri 10 ml
M.D.S 25 damcıdan gündə 2 dəfə qəbul etməli

| | | |
|---|---|---|
| Şərti qiymətlər: Adonizid | 10 ml | = 70 qəp. |
| Pişikotu cövhəri | 10 ml | = 40 qəp. |
| İnciçiçəyi cövhəri | 10 ml | = 40 qəp. |
| Şirquyruğu cövhəri | 10 ml | = 50 qəp. |
| Şüşə qab | 50 ml | = 10 qəp. |

A) 2man.15 qəp.
B) 1man.23 qəp.
C) 68 qəp.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

D) 73 qəp.
E) 1man.59 qəp.

Hazırlanmış ekstemporal dərman formasının qiyməti 2 man.15 qəpikdir ( təmizlənmiş su üçün pul çıxılmamışdır ).

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.205.

94. Buraxılacaq dərman formasının qiyməti nə qədərdir?

Rp.: Thiamini bromidi 0,02
Riboflavini 0,001
Pyridoxyni hydrochloridi 0,06
Glucosi 0,05
M.f. pulvis
D.t.d. N 30
Siqna. 1 por. gündə 3 dəfə

| | | | |
|---|---|---|---|
| Şərti qiymətlər: | Vit B1 | 1,0 | = 60 qəp. |
| | Vit B2 | 1,0 | = 70 qəp. |
| | Vit B6 | 1,0 | = 50 qəp. |
| | qlükoza | 10,0 | = 05 qəp. |

A) 1man.35qəp.
B) 1man. 40qəp.
C) 1man. 30qəp.
D) 1man. 55qəp.
E) 1man.25 qəp.

Aptekdə hazırlanmış ekstemporal dərman formasının qiyməti 1man. 35 qəpikdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.205.

95. "Laboratoriya və qablaşdırma işinin uçotu" kitabı neçə il üçün nəzərdə tutulur?

A) 1 il
B) yarım il
C) bir rüb
D) 1 il 6 ay
E) 2 il

Laboratoriya və qablaşdırma işinin aparılması üçün xüsusi kitab tərtib edlməlidir. Bu kitabın səhifələri nömrələnməli, qaytanlanmalı və rəhbər işçinin imzası və möhürü ilə təsdiqlənməlidir. Kitab 1 il üçün nəzərdə tutulur.
Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.218.

96. Aptekdə hazırlanan "Perhidrol" məhlulu nun flakonu üzərinə hansı əlavə etiket vurulmalıdır.

SMSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

A) "Ehtiyatlı olmalı"
B) "Oddan qorumalı"
C) "İşıqdan qorumalı"
D) "Soyuq yerdə saxlamalı"
E) "İstifadədən əvvəl çalxalamalı"

“Perhidrol” məhlulu zəhərli maddə olduğu üçün, onun flakonunun üzərinə “ehtiyatlı olun” etiketi vurulmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.222.

97. Buraxılmış təmiz "fenol məhlulu" yerləşdirilən flakonun üzərinə hansı əlavə etiket vurulmalıdır?

A) "Ehtiyatlı olmalı"
B) "Soyuq yerdə saxlamalı"
C) "Ürək üçün"
D) "Oddan qorumalı"
E) "Zəhər"

Aptekdə hazırlanmış ”fenol məhlulu”nun flakonun üzərinə “ehtiyatlı olmalı” etiketi vurulmalıdır, çünki o güclü təsiredici maddə sayılır. Bu, “Apteklərdə hazırlanan dərmanların vahid rəsmiləşdirilmə qaydaları” na istinad edir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.222.

98. Bunlardan hansı üçün təbii itki norması qəbul edilməmişdir?
A) zərdablar
B) pambıq
C) şüşə qablar
D) tibbi zəlilər
E) dərman substansiyaları

Malın və maddi dəyərlərin saxlanılmasında cavabdehliyi möhkəmləndirmək və itkilərin səviyyəsini azaltmaq məqsədilə apteklər üçün təbii itki normaları təsdiqlənmişdir. Təbii itki normaları dərmanlar, pambıq, tibbi zəlilər və şüşə qablar üçün qəbul edilmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova “Əczaçılığın idarəolunması və iqtisadiyyatı”. Bakı-2013, səh.225.

99. Tərkibinə "morfin hidroxlorid" daxil olan fərdi hazırlanan dərman üçün təbii itki norması nə qədərdir?

A) onun miqdarının 0,95%-i civarında
B) onun miqdarının 0,4%-i civarında

TSİSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

C) onun miqdarının 0,85%-i civarında
D) onun miqdarının 0,45%-i civarında
E) onun miqdarının 0,65%-i civarında

Qəbul edilmiş təbii itki normalarına görə, narkotik vasitələr üçün təbii itki – onun miqdarının 0,95%- i təsdiqlənmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.225.

100. Tərkibində "dikain" olan fərdi hazırlanan dərman üçün təbii itki norması nə qədərdir?

A) onun miqdarının 0,95%-i qədəri
B) onun miqdarının 0,85%-i qədəri
C) onun miqdarının 0,45%-i qədəri
D) onun miqdarının 0,35%-i qədəri
E) onun miqdarının 0,1%-i qədəri

Qəbul edilmiş təbii itki normalarına görə, tərkibində "dikain" olan ekstemporal dərman üçün təbii itki onun miqdarının 0,95%-ni təşkil edir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.225.

101. Təmizlənmiş suyun keyfiyyət analizindən keçirilməsi zamanı hansı birləşmələrin yoxlanılması əsas sayılmır ?

A) nitratların olması
B) xloridlərin olması
C) sulfatların olması
D) kalsium duzlarının olması
E) ammonyakın olması

Qəbul olunmuş qaydalara əsasən, təmizlənmiş su keyfiyyət analizindən keçirilən zaman onun tərkibində nitratların olub-olmaması yoxlanılmır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.228.

102. Vaxtaşırı olaraq, təmizlənmiş su tam kimyəvi analizdən keçmək üçün Nəzarət Analitik Laboratoriyasına neçə aydan bir göndərilir?

A) üç aydan bir
B) hər həftə
C) 2 həftədən bir
D) hər ay
E) 45 gündən bir

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Qəbul olunmuş qaydalara əsasən, təmizlənmiş su rübdə bir dəfə Nəzarət Analitik Laboratoriyasına tam kimyəvi analizdən keçmək üçün göndərilməlidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.228.

103. Bu vasitələrdən hansı aptekdən reseptsiz satıla bilər?

A) Karbolen
B) Metiprilon
C) Aminoreks
D) Lidokain
E) Atenolol

Aptekdən reseptsiz satılan "Karbolen" terapevtik təhlükəsiz dərman vasitəsidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.230.

104. Göstərilən dərmanlardan hansı aptekdən reseptsiz buraxıla bilər?

A) Nitroqliserin tableti
B) Salbutamol tableti
C) Karbomazepin tableti
D) Sulfasalazin tableti
E) Diqoksin tableti

"Nitroqliserin" tableti reseptsiz buraxılmasına icazə verilən dərman vasitələrinin siyahısına daxildir (130 saylı əmr).

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.231.

105. Göstərilən dərmanlardan hansı aptekdən reseptsiz buraxıla bilməz?

A) Ambroksol
B) İzoniazid
C) Ofloksazin
D) Diazepam
E) Merkaptopurin

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 18.09.2008-ci il tarixli 130 saylı əmrinə görə, "Ambroksol"reseptsiz buraxılmasına icazə verilən dərman vasitələrinin siyahısına daxildir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.231.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

106. Aptek müəssisəsində aparılan operativ uçota hansı əməliyyatlar daxildir?

A) aptekə daxil olan malların qeydiyyatının aparılması
B) satış həcminin dinamikasının aydınlaşdırılması
C) işçilərin əmək haqqının səviyyəsinin təyin edilməsi
D) aptekin əmək məhsuldarlığının müəyyən edilməsi
E) müəssisənin maliyyə vəziyyətinin müəyyən edilməsi

Aptekə daxil olan malların qeydiyyatının aparılmasına nəzarət operativ uçot vasitəsilə aparılır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.560.

107. Statistik uçotda bunlardan hansı əks etdirilir?

A) məhsulun satış həcminin müəyyənləşdirilməsi
B) realizə olunan məhsulun qeydiyyatının aparılması
C) aptekdə uyğun şöbələrin düzgün fəaliyyətinin təşkili
D) müxtəlif fondların hərəkətinin əks etdirilməsi
E) müəssisənin maliyyə vəziyyətinə nəzarətin edilməsi

Aptek sistemində statistik uçot onların həyat fəaliyyətini əks etdirərək, kəmiyyət və keyfiyyət göstəricilərinin təhlili ilə məşğul olur, malın satış həcminin dinamikasını müəyyənləşdirir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.561.

108. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu neçənci ildə təsdiqlənmişdir?

A) 1995-ci ildə
B) 1996-cı ildə
C) 1992-ci ildə
D) 1997-ci ildə
E) 1998-ci ildə

Azərbaycanda mühasibat uçotu beynəlxalq standartlara yaxınlaşdırılaraq, 1995-ci ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.562.

109. Aşağıdakılardan hansı aptek sistemində işlədilən mühasibat uçotu formalarına daxil edilmir?

A) informasiyanın müxtəlif növləri
B) registrlərin təyinatı
C) qeydiyyatın aparılma texnikası
D) sintetik uçotun formaları

E) analitik uçotun formaları

Mühasibat uçotunun formaları dedikdə, uçot yazılışlarının müəyyən sistem üzrə və ardıcıllıqla tərtib olunan reqistrlərinin məcmusu başa düşülür. Məzmununa görə isə sintetik və analitik uçot registrləri ayırd edilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.564.

110. Vergi məcəlləsinə görə, aptek müəssisələrinin avadanlığı və hesablama texnikası üçün illik amortizasiya norması nə qədər müəyyən edilmişdir?

A) dəyərinin 25%-ə qədəri
B) dəyərinin 20%-ə qədəri
C) dəyərinin 7%-ə qədəri
D) dəyərinin 5%-ə qədəri
E) dəyərinin 10%-ə qədəri

Maliyyə Nazirliyinin 01.04.1998-ci il tarixli 1- 46 saylı əmrinə əsasən, müəssisələrdə əsas vəsaitlər üçün qruplar üzrə illik amortizasiya normaları müəyyənləşdirilmişdir. Vergi məcəlləsinə görə, apteklərdə avadanlıq və hesablama texnikası üçün illik amortizasiya norması onların dəyərinin 25%-i qəbul edilmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.627.

111. "Lizinq" sözünün mənası nədir?

A) icarəyə vermək
B) köhnəlmək
C) fondlaşdırmaq
D) qəbul etmək
E) silmək

"Lizinq" – ingilis sözü olub, "to lease" – "icarəyə vermək" deməkdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.629.

112. Cari lizinqdə əsas vəsait hansı müddətə icarəyə verilir?

A) 2-5 illik
B) 5-8 illik
C) 1 illik
D) 8-10 illik
E) 10 ildən çox müddətə

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Cari lizinqdə əsas vəsait 2-5 illik müddətində icarəyə verilir, sonra vəsaitin qaytarılması və ya müqavilənin uzadılması nəzərdə tutulur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.630.

113. Aptek müəssisələrinin ticarət əlavəsi nədir?

A) pərakəndə və topdansatış qiymətlər arasındakı fərq
B) illik realizasiyadan əldə edilən gəlir
C) pərakəndə və topdansatış qiymətlər arasındakı fərq
D) realizə olunmayan malların qiyməti
E) malın daşınmasında vasitəçi kanallara sərf olunan məsrəf(məbləğ)

Satılan malın ticarət əlavəsi məbləğinin müəssisənin təsərrüfat əməliyyatında əks etdirilməsi vacib əhəmiyyət kəsb edir. Ticarət əlavəsi malın pərakəndə və topdansatış qiymətləri arasındakı fərqdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.649.

114 . Realizə olunmuş malın ticarət əlavəsi hansı qayda üzrə hesablanır?

Burada: $R_{t/ə}$ ---realizə olunmuş malın ticarət əlavəsi
$Q_{ət/ə}$ - ayın əvvəlinə olan ticarət əlavəsi
$Q_{st/ə}$ - ayın sonuna hesablanmış ticarət əlavəsi
$D_{t/ə}$ - daxil olan malın ticarət əlavəsi

A) $R_{t/ə} = Q_{ət/ə} + D_{t/ə} - Q_{s\ t/ə}$
B) $R_{t/ə} = D_{t/ə} + Q_{st/ə} + Q_{ət/ə}$
C) $R_{t/ə} = D_{t/ə} + Q_{st/ə} - Q_{ət/ə}$
D) $R_{t/ə} = Q_{st/ə} - Q_{ət/ə} - D_{t/ə}$
E) $R_{t/ə} + Q_{ət/ə} - D_{t/ə} + Q_{st/ə}$

Mal ehtiyatı balansına görə, aylıq satılan malın ticarət əlavəsi hesablanır. Satılan malın ticarət əlavəsi aşağıdakı düstura əsasən hesablanır:

$Q_{ət/ə} + D_{t/ə} = R_{t/ə} + Q_{st/ə}$

Buradan:

$R_{t/ə} = Q_{ə/tə} + D_{t/ə} - Q_{st/ə}$

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.649.

115. Təhtəlhesab şəxs tərəfindən aptek məntəqəsində tərtib olunan "Mal hesabatı" necə təsdiqlənir?

A) "Mal hesabatı" hər ayın sonu tərtib olunaraq təsdiqlənir
B) "Mal hesabatı" hər yarım aydan bir tərtib olunaraq təsdiqlənir
C) "Mal hesabatı" hər 10 gündən bir tərtib olunaraq təsdiqlənir
D) "Mal hesabatı" hər 2 aydan bir tərtib olunaraq təsdiqlənir
E) "Mal hesabatı" hər rübün sonu üçün tərtib olunaraq təsdiqlənir

SİNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Təhtəlhesab şəxs "Mal hesabatı"nı belə aparır : hər ayın sonu və iki nüsxədə. Bu hesabatda malın, taranın və başqa qiymətli vəsaitin pərakəndə və topdansatış qiymətlə xronoloji qaydada hərəkəti əks etdirilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.601.

116. Bunlardan hansı tədavül xərclərini müəyyən etmir?

A) malın qiymətinin dəyişməsi
B) malın daşınması
C) malın saxlanması
D) malın qablaşdırılması
E) nəqliyyat xərcləri

Aptekin tədavül xərclərinə aiddir: malın müəyyən yerə çatdırılması, saxlanması, nəqliyyat xərcləri, həmçinin malın istehsaldan istehlakçıya çatdırılması üçün qablaşdırılması, kommunal xərclər və s.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.650.

117. Tədavül xərclərinin azaldılmasına hansı amil təsir etmir.

A) müəssisənin təsərrüfatsızlığı ucbatından baş verən itkilər
B) dərman xidmətinin təkmilləşdirilməsi
C) yeni texnologiyaların tədbiqi sayəsində baş verən dəyişikliklər
D) malın maya dəyərinin azaldılması
E) malın daşınma sisteminin dəyişdirilməsi ucbatından baş verən dəyişikliklər

Aptekin tədavül xərcləri nə qədər az olarsa, aptek bir o qədər gəlirli və rentabelli olar. Belə ki, əhaliyə dərman xidmətinin təkmilləşdirilməsi, nanotexnologiyaların tətbiqi, malın maya dəyərinin aşağı düşməsi və malın daşınmasıında itkinin azaldılması tədavül xərclərinin azalmasına təsir edir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.651.

118. Aptek iqtisadiyyatında tədavül xərclərinin azaldılmasına hansı amil təsir etmir?

A) binanın icarə xərcləri
B) əhaliyə göstərilən xidmətin təkmilləşdirilməsi
C) işçilərin əmək məhsuldarlığının artırılması
D) nəqliyyat xərclərinin azalması
E) yeni texnologiyaların tədbiqi

Sabit tədavül xərcləri mal dövriyyəsinin artmasından asılı olmayaraq dəyişmir. Məsələn, aptekin binasının icarə xərcləri tədavül xərclərinin azaldılmasına təsir etmir.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.382.

119. Bunlardan hansı təmiz tədavil xərclərinə aid edilir?
A) reklam işinin aparılması
B) nəqliyyat xərcləri
C) saxlanma xərcləri
D) malın çəkilməsi xərcləri
E) malın qablaşdırma xərcləri

Nəqliyyat xərcləri, malın saxlanma xərcləri, malın çəkilmə və qablaşdırma xərcləri - müəssisənin əlavə tədavül xərclərinə aiddir. Reklam - təmiz tədavül xərclərinə aid olub, malın qiymətinə təsir etmir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.381.

120 . Bunlardan hansı aptekn iqtisadi daxili xərclərinə aid edilir?

A) aptekin binasının icarə haqqı
B) mal verən təşkilatlara sərf olunan xərclər
C) nəqliyyat üçün sərf olunan xərclər
D) enerjiyə sərf olunan xərclər
E) qaz sərfiyyatına çıxılan xərclər

Aptekin iqtisadi xərcləri iki növə ayrılır: xarici xərclərə və daxili xərclərə. İqtisadi daxili xərclər ehtiyatların sərbəst istifadəsindən alınır. Məsələn, aptek binasının icarə haqqı.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.382.

121. "Tibbi sığorta" maddəsi üzrə uçota alınan tədavül xərcləri onun hansı növünə aiddir?

A) sosial ehtiyaclara ödənilən xərclərə
B) əmək haqqı xərclərinə
C) kredit üzrə xərclərə
D) kommunal xərclərə
E) reklam xərclərinə

Sosial ehtiyaclara ödəmələrə – təsdiqlənmiş qanunvericiliyə uyğun olaraq, dövlət sosial sığortası, təqaüd fondu, məşğulluq fondu və tibbi sığorta aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.651.

122. "Xalq təsərrüfatında kassa əməliyyatlarının aparılma qaydaları" adlı hüquqi sənəd nə vaxt təsdiq edilmişdir?

SMSA.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

A) 1993-cü ildə
B) 1999-cu ildə
C) 1991-ci ildə
D) 1992-ci ildə
E) 1995-ci ildə

Kassa əməliyyatlarının həyata keçirilmə qaydası Azərbaycan Respublikası Milli Bankının 6 aprel 1993- cü ildə təsdiq etdiyi sənədə əsaslanır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.657.

123. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 266 saylı qərarı ("Azərbaycan Respublikası ərazisində nəzarət -kassa aparatlarının tətbiq olunması haqqında") nə vaxt verilmişdir?

A) 28 dekabr 1995-ci ildə
B) 5 yanvar 1993-cü ildə
C) 16 iyun 1992-ci ildə
D) 21 may 1996-cı ildə
E) 16 sentyabr 1996-cı ildə

"Azərbaycan Respublikası ərazisində nəzarət- kassa aparatlarının tətbiq olunması haqqında" qərar 28 dekabr 1995- ci ildə verilmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.657.

124. İşlədilməmiş qəbzlər aptekdə neçə gün ərzində saxlanılmalıdır?

A) 10 gün ərzində
B) 15 gün ərzində
C) 7 gün ərzində
D) 3 həftə ərzində
E) 30 gün ərzində

Təsdiqlənmiş qaydalara əsasən, işlədilməmiş qəbzlər aptekin maddi- məsul şəxsində 10 gün müddətində saxlanmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.659.

125. Aptekdə son inventarizasiyada çatışmazlıq aşkar olunduqda, işlədilmiş nəzarət lentləri nə qədər müddət ərzində saxlanmalıdır?

A) məsələ aydınlaşdırılana qədər
B) son inventarizasiyadan 15 gün keçənə qədər
C) son inventarizasiyadan 3 gün keçənə qədər
D) son inventarizasiyadan 10 gün keçənə qədər

ONSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

E) son inventarizasiyadan 30 gün keçənə qədər

İşlədilmiş nəzarət lentləri qablaşdırılmış şəkildə axırıncı inventarizasiyadan 15 gün keçənə qədər saxlanılır. Çatışmazlıq aşkar olunduqda isə məsələ tam aydınlaşdırılana qədər saxlanılmalıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.659.

126. Bunlardan hansı kassa mədaxili əməliyyatlarına aiddir?

A) inventarizasiya zamanı aşkar olunan çatışmazlıqların ödənilməsi
B) banka verilən satış pulu
C) təsərrüfat mallarının alınması üçün verilən pul
D) ezamiyyət üçün ayrılan pul
E) müvəqqəti əmək qabiliyyətini itirdikdə yardım üçün ödəniş

Kassa mədaxili əməliyyatlarına aiddir: aptekin və xırda pərakəndə satış şəbəkəsinin satış pulu, təsərrüfat mallarının alınması üçün verilmiş və işlədilməmiş pul, inventarizasiya zamanı aşkar olunan çatışmazlıqların maddi- məsul şəxs tərəfindən ödənilməsi və s.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.660.

127. Azərbaycan Respublikasının "Əmək məcəlləsi haqqında" qanunu neçənci ildə verilmişdir.

A) 1999-cu ildə
B) 1995-ci ildə
C) 1977-ci ildə
D) 1998-ci ildə
E) 2001-ci ildə

Azərbaycan Respublikasının "Əmək məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimlənməsi məsələləri haqqında" qanunu 01 iyul 1999-cu ildə verilmişdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.673.

128. 14yaşına qədər iki uşağı olan qadına verilən əlavə məzuniyyət neçə gündür?

A) 2 təqvim günü
B) 5 təqvim günü
C) 4 təqvim günü
D) 6 təqvim günü
E) 3 təqvim günü

Əmək məcəlləsinə görə, məzuniyyətin müddətindən asılı olmayaraq, 14 yaşına qədər iki uşağı olan qadına 2 təqvim günü əlavə məzuniyyət verilir.

SHSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.675.

129. Ödənişsiz məzuniyyət hansı müddətə verilir?

A) 14 təqvim gününədək
B) 7 təqvim gününədək
C) 10 təqvim gününədək
D) 20 təqvim gününədək
E) 30 təqvim gününədək

Əmək məcəlləsinə görə, işçinin xahişi və tərəflərin razılığı ilə ona 14 təqvim günü ödənişsiz məzuniyyət verilə bilər.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.675.

130. Aptek işçilərinə nə qədər əlavə məzuniyyət verilməlidir?

A) 6 təqvim günü
B) 2 təqvim günü
C) 3 təqvim günü
D) 4 təqvim günü
E) 5 təqvim günü

Əczaçılara əsas məzuniyyət 30 təqvim günü verilir, lakin onlar zərərli iş şəraitində işlədiklərinə görə, 6 təqvim günü əlavə məzuniyyət də götürürlər.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.676.

131. Qanunvericiliyə görə, işdə aldığı xəsarətlə əlaqədar olaraq, müvəqqəti əmək qabiliyyətini itirən işçiyə verilən müavinət nə qədər olmalıdır?

A) əmək haqqının 100%-i ölçüsündə
B) əmək haqqının 80%-i ölçüsündə
C) əmək haqqının 70%-i ölçüsündə
D) əmək haqqının 60%-i ölçüsündə
E) əmək haqqının 50%-i ölçüsündə

İşdə aldığı xəsarətlə əlaqədar olaraq, müvəqqəti əmək qabiliyyətini itirdikdə işçinin iş stajından asılı olmayaraq, ona əmək haqqının 100%- i ölçüsündə müavinət verilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.677.

132. Himayəsində 16 yaşına çatmayan xəstə uşağı olan işçiyə verilən müavinət nə qədər olmalıdır?

A) əmək haqqının 100%-i ölçüsündə
B) əmək haqqının 80%-i ölçüsündə

SUSP.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

C) əmək haqqının 70%-i ölçüsündə
D) əmək haqqının 60%-i ölçüsündə
E) əmək haqqının 50%-I ölçüsündə

Qanunvüriciliyə görə, himayəsində 16 yaşına çatmayan xəstə uşağı olan işçiyə, xəstəliyə görə müavinət əmək haqqının 100% ölçüsündə verilməlidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.677.

133. Qadının doğuşu çətin olduqda, ona verilən sosial məzuniyyət neçə gün olmalıdır?

A) 140 təqvim günü
B) 126 təqvim günü
C) 70 təqvim günü
D) 160 təqvim günü
E) 145 təqvim günü

Qanunvericiliyə görə, əgər qadının doğuşu ağır olarsa, ona 140 təqvim günü məzuniyyət verilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.677.

134. Məcmu mədaxil nədir?

A) pərakəndə şəbəkənin satış həcmi
B) 1 məhsulun satışından əldə edilən mədaxil
C) malın ticarət əlavəsi
D) tədavil xərclərinin örtülməsi üçün əldə edilən minimum gəlir
E) məcmu gəlirlə məcmu tədavül xərcləri arasındakı fərq

Məcmu mədaxil- pərakəndə şəbəkənin satış fəaliyyəti nəticəsində əldə etdiyi satışın həcmi və ya istehsalçı tərəfindən hazır məhsulun realizasiyasıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.387.

135. Müəssisənin təmiz gəliri nədir?

A) ticarət əlavəsinin məcmu göstəricisi ilə məcmu tədavül xərcləri arasındakı fərq
B) 1 məhsulun satışından əldə edilən gəlir
C) limitli mədaxil
D) malın alış və satış qiymətləri arasındakı fərq
E) müəssisənin satış fəaliyyəti nəticəsində əldə etdiyi gəlir

Təmiz gəlir (iqtisadi gəlir) – məcmu gəlirlə (ticarət əlavəsi) məcmu tədavül xərcləri arasındakı fərqdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.388.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

136. "Biznes-plan" termininin mənası nədir?

A) iş planı
B) bölüşdürmə planı
C) daşınma planı
D) istehsalatda vertikal inteqrasiya planı
E) ehtiyacların ödənilmə planı

"Biznes" - termini ingilis sözü olub, " bisiness" sözündən götürülmüşdür. Hərfi mənası " iş" deməkdir. Bazar iqtisadiyyatı şəraitində biznes- plan şəklində əks etdirilir, hazır məhsulun son istehlakçıya çatdırılması ilə xarakterizə olunur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.389.

137. Bunlardan hansı biznes-planın funksiyasına daxil deyil?

A) əhaliyə informasiyaların verilməsi
B) məhsulun istehsalında gözlənilən inteqrasiya
C) pərakəndə satış şəbəkələrinin genişləndirilməsi
D) mal çeşidlərinin genişləndirilməsi
E) inkişaf prosesinin qiymətləndirilməsi

Məhsulun istehsalında vertikal inteqrasiya, pərakəndə satış şəbəkələrinin və mal çeşidlərinin genişləndirilməsi – biznes- planın konsepsiyasının hazırlanması, inkişaf prosesinin qiymətləndirilməsi isə onun planmaşdırma funksiyalarına aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.389.

138. Aptek təşkilatlarının hesabatı dedikdə hansı göstərici nəzərdə tutulur?

A) müəyyən dövr üçün təsərrüfat-maliyyə fəaliyyətinin nəticəsi
B) müəyyən dövr üçün təsərrüfat əməliyyatlarının gedişinə nəzarətin nəticəsi
C) müəyyən dövr üçün müəssisənin inventarizasiya göstəricilərinin nəticəsi
D) əhalinin sayını və tərkibini nəzərə almaqla, əldə edilən statistik göstərici
E) tərtib olunan qaimələr üzrə aparılan reyestr qeydiyyatı

Aptek təşkilatlarının hesabatı- müəyyən dövr üçün (rüb, il)
təsərrüfat- maliyyə fəaliyyəti üzrə göstəricilərinin yekunlaşdırılmasını əks etdirir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.600.

139. Müəssisənin aylıq hesabatı neçə nüsxədə tərtib olunur?

A) 2 nüsxədə
B) 1 nüsxədə
C) 3 nüsxədə

SUSI.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

D) 4 nüsxədə
E) 3 nüsxədə və bir ümumi qaimə göstəricisi ilə

Dövri hesabatlara görə, mal hesabatı iki nüsxədə tərtib olunur. Bu hesabatda malın, taranın və başqa qiymətli vəsaitin pərakəndə və topdansatış qiymətlə hərəkəti xronoloji qaydada əks etdirilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.601.

140. Müəssisənin hesabat göstəricilərinə görə, müəyyən dövrün sonuna olan mal qalığı necə hesablanır?
Burada:
$Q_s$- dövrün sonuna olan mal qalığı
$Q_ə$ - dövrün əvvəlinə olan mal qalığı
D- daxil olan mal
S- satılan mal

A) $Q_s=Q_ə+D-S$
B) $Q_s = S + Q_ə + D$
C) $Q_s = Q_ə - D - S$
D) $Q_s = S + Q_ə - D$
E) $Q_s = D + S - Q_ə$

Mal balansı formulasına əsasən, müəssisənin hesabat göstəriciləri müəyyən edilir. Mal ehtiyatı balansının düsturu belədir:
$Q_ə + D = S + Q_s.$
Buradan:
$Q_s = Q_ə + D – S$

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.240.

141. Müəssisənin uçot sənədlərinin saxlanilma müddəti nə qədərdir?

A) 5 il
B) 6 ay
C) 1 il
D) 2 il
E) 3 il

Uçot sənədləri təsdiqlənmiş qaydaya əsasən saxlanılır. Saxlanılma müddəti 5 ildir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.576.

142. Müəssisədə inventarizasiyanın aparılmasında hansı amil əsas sayılmır?

A) müəyyən farmakoterapevtik təsirli dərman vasitələrinin dövriyyəsini aşkara çıxarmaq

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

B) mal və maddi dəyərlərin faktiki miqdarını yoxlamaq
C) mal və maddi dəyərləri mühasibat uçotunun göstəriciləri ilə müqayisə etmək
D) uçot göstəricilərinin tamlığını aşkara çıxarmaq
E) mal qalığını və borcları aşkara çıxarmaq

İnventarizasiya – nəzarətin bir növü olub, əsas vəzifəsi mal- maddi dəyərlərin faktiki miqdarının yoxlanılması, onların mühasibat uçotu göstəriciləri ilə müqayisəsi, uçot göstəricilərinin tamlığının, mal qalığı və borcların aşkara çıxarılması prosesidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.577.

143 . "Balans" sözünün hərfi mənası nədir?

A) bərabərlik
B) həqiqi
C) aktiv
D) oxşarlıq
E) passiv

"Balans" termini fransızca " balance" – tərəzi, latınca "bi lana" – "iki fincan", yəni bərabərlik (iki hissənin bərabərliyi) deməkdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.591.

144. Əczaçılıq marketinqinin əsas tərifi hansıdır?

A) əczaçılıq yardımına olan tələb və ehtiyacların mübadilə vasitəsilə ödənilməsinə yönəldilmiş fəaliyyət növüdür
B) ayrı-ayrı təşkilatların tələbatının ödənilməsi məqsədilə mal və xidmətlərin bölüşdürülməsi və hərəkəti prosesidir
C) əczaçılıq bazarında təşkilatın idarəetmə konsepsiyasıdır
D) əczaçılıq bazarında ideyaların bölüşdürülməsi prosesidir
E) əsas obyekti istehlakçı olan fəaliyyət növüdür

Marketinqin bu və ya digər tərəflərini əks etdirən bir çox tərifi vardır. Əczaçılıq marketinqinin xarakteristikasını düzgün vermək üçün qeyd etməliyik ki, əczaçılıq marketinqi – ümumi marketinqin bir hissəsi oub, əczaçılıq yardımına olan tələb və ehtiyacların mübadilə vasitəsilə ödənilməsinə yönəldilmiş fəaliyyət növüdür.
Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.493.

145. Tələb nədir?

A) alıcılıq qabiliyyəti ilə təsdiqlənən insan tələbatıdır
B) fərdin şəxsi və mədəni səviyyəsindən asılı olaraq spesifik formaya düşmüş insan ehtiyacıdır
C) əhalinin dərman vasitələri ilə təminatında maliyyənin müəyyən həcmidir

D) insanların özünə hörmət arzusudur
E) insanların sağlam olmaq arzusudur

Əczaçılıq marketinqinin araşdırmalarına görə, tələb- istehlakçının maliyyə imkanından asılı olaraq, malın əldə edilmə arzusudur, daha dəqiq desək, tələb- alıcılıq qabiliyyəti ilə təsdiqlənən tələbatdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.494.

146. Strateji marketinq konsepsiyası nədir?

A) rəqabətli bazarda rəqabətə davamlılıq siyasətinin aparılması
B) istehlakçının ehtiyac və tələblərinin təyin edilməsi
C) istehlakçının tələbatının daha effektiv üsullarla qənaətləndirilməsi
D) cəmiyyətin həyat səviyyəsinin yüksəldilməsi
E) istehlakçının sağlam həyat tərzinin formalaşdırılması

Strateji marketinq konsepsiyası – rəqabətli bazarda marketinq qərarlarının qəbulu prosesini təyin edir.Təşkilat tərəfindən istehlakçıların ehtiyaclarının ödənilməsi üçün öz rəqiblərindən üstün fəaliyyət göstərməsini tələb edir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.498.

147. Bazarda qiymətin son həddi necə müəyyənləşdirilir?

A) ticarət əlavəsi üstəgəl əlavə dəyər vergisi ilə
B) malın ticarət əlavəsi ilə
C) malın maya dəyəri üstəgəl tədavül xərcləri ilə
D) malın əlavə dəyər vergisi üstəgəl maya dəyəri ilə
E) əhalinin yoxsul təbəqəsinin gəlirinin hesablanması ilə

Bazar iqtisadiyyatı şəraitində əsas məqsəd dərman preparatlarına qiymətyaranma sahəsində çəkilən xərclərə nəzarət etmək, münasib qiymət üçün təminat verməkdir. Qiymətin son həddi belə müəyyənləşdirilir: mala qoyulan ticarət əlavəsi üstəgəl əlavə dəyər vergisi.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.289.

148. Bunlardan hansı bazarın qiymət vasitəsilə tənzimləmə prinsipinə istinad etmir?

A) inflyasiya
B) səmərəlilik
C) effektivlik
D) ədalətlilik
E) sabitlik

Bazarın qiymətlər vasitəsilə dövlət tənziminin xüsusi əhəmiyyəti onun bu əsas prinsiplərə istinad edilməsini tələb edir: səmərəlilik, effektivlik, ədalətlilik və sabitlik.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.317.

149. Malın qiymətinə hansı amil təsir etmir?

A) malın reklam xərcləri
B) əmək məhsuldarlığı
C) dərman substansiyalarının qiyməti
D) sərf edilən enerji
E) köməkçi maddələrin qiyməti

Qiymət- tələb və təkliflə əlaqədar bazar qanunlarından biridir . İstehsal prosesi, əmək məhsuldarlığı məhz malın qiymətinə təsir edən amillər sayılır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.317.

150. Bunlardan hansı qiymətin uçot funksiyasına xasdır?

A) istehsalatda sərf edilən əmək
B) məhsulun keyfiyyətinin artırılması
C) çeşidlərin təzələnməsi
D) işçilərin həvəsləndirilməsi
E) motivləşmə

Bazar qiymətinin uçot funksiyası istehsalat mühitinə xas olaraq, sərf olunan əməyin qiymətini əks etdirir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.318.

151. Bunlardan hansı normalaşdırılan dərmanlar siyahısına daxil deyildir?

A) Adrenalin
B) Tebain
C) Barbital
D) Klanozepam
E) Mezokarb

Bəzi dərman vasitələri var kı, onların qəbulu ciddi normalaşdırılmışdır.Bunlara narkotik vasitələr, psixotrop maddələr, etil spirti aid edilir. Siyahıda verilən" Tebain", " Barbital", "Klanozepam" və "Mezokarb"- normalaşdırılan dərmanlar qrupuna aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh 503.

152. Normalaşdırılan dərmanlar qrupuna hansı maddələr daxildir?

A) psixotrop maddələr

SNSF.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

B) hormonal preparatlar
C) sedativ dərman vasitələri
D) qeyri-opiat ağrıkəsicilər
E) qeyri -steroİd iltihab əleyhinə dərmanlar

Bəzi dərman vasitələri var ki, onların qəbulu ciddi normalaşdırılmışdır. Psixotrop maddələr normalaşdırılmış dərmanlar qrupuna aiddir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.503.

153. Spesifik təsirə malik dərmanlar hansılardır?

A) vərəm əleyhinə preparatlar
B) hemoroy əleyhinə preparatlar
C) spazmolitik preparatlar
D) antibakterial preparatlar
E) hipotenziv preparatlar

Spesifik təsirə malik dərman preparatları üçün ( vərəm əleyhinə, şiş əleyhinə və s.) xüsusi olaraq tələbat normativi işlənib hazırlanmışdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.503.

154. Bu dərman vasitələrindən hansı geniş təsir spektrinə malik dərman preparatları qrupuna aiddir?

A) sulfanilamid preparatları
B) antiaritmik dərman vasitələri
C) antianginal dərman vasitələri
D) hipotenziv dərman vasitələri
E) trombəleyhinə dərman vasitələri

Geniş təsir spektrinə malik dərman vasitələri (vitaminlər, sulfanilamid preparatları, antibiotiklər və s.) müxtəlif xəstəliklərin profilaktikasında və müalicəsində istifadə olunur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.505.

155. Mala olan həqiqi sorğu necə xarakterizə olunur?

A) həqiqi sorğu-mala olan müraciətlərin sayına bərabər olur
B) həqiqi sorğu- malın faktiki istifadəsinə bərabər olur
C) həqiqi sorğu- əvəzedicinin miqdarına bərabər olur
D) həqiqi sorğu- inkar olunan miqdara bərabər olur
E) həqiqi sorğu- realizə olunan sorğu ilə qane edilməyən sorğuların fərqinə bərabər olur

Əczaçılıq mallarına olan sorğu 3 cür təsnif edilir: həqiqi, realizə olunan və qane edilməyən. Həqiqi sorğunun xarakteristikası belədir: həqiqi sorğu- mala olan müraciətlərin sayına bərabər olur.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.505.

156. Aptek çeşidi mallarına olan sorğu üzrə hesablanmaların aparılmasında istifadə olunmayan göstərici hansıdır?

A) xəstəliyin proqnozu
B) yaş həddi
C) cins
D) gəlir
E) həkimə müraciətin intensivliyi

Aptek çeşidi mallarına olan sorğu üzrə hesablamalar aparılarkən aşağıdakı gstəricilərdən istifadə olunur: həkimə müraciətlərin intensivliyi, yaş həddi, insanların cinsi, malın qiyməti, gəlir, aptekə müraciətlərin intensivliyi və s.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.507.

157. 3 gün ərzində aparılan həqiqi sorğunun sayı 15-dirsə, ay ərzində həqiqi sorğu neçə olacaqdır?

A) 150
B) 90
C) 30
D) 135
E) 60

Ay ərzində həqiqi sorğu belə hesablanır:
H = 15 : 3 x 30 =150

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.506.

158. Menecment termini nəyi ifadə edir?

A) rəhbərlik
B) mübadilə
C) tələbat
D) ehtiyac
E) sorğu

Menecment termini ingilis sözü olub, "management", yəni idarəetmə, rəhbərlik kimi tərcümə olunur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.449.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

159. Bunlardan hansı idarəetmə subyektinə aiddir?

A) hüquqi şəxs
B) təşkilatın işçi heyəti
C) müəssisə kollektivi
D) sosial-iqtisadi sistem
E) təsəərrüfat fəaliyyəti

İdarəetmə subyekti - fiziki və ya hüquqi şəxslərdir və burada təşkilatın rəhbəri idarəediciliyi həyata keçirən şəxs ola bilər.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.449.

160. İdarəetmədə bunlardan hansı " prosesli yanaşma" prinsipinə daxil edilmir?

A) konkret işin yerinə yetirilməsi
B) işin planlaşdırılması
C) işin təşkil edilməsi
D) işə nəzarət
E) motivləşmə

Əsas idarəetmə prinsiplərinə aid olan" prosesli yanaşma"da– bir- biri ilə əlaqədar olan idarəetmə funksiyaları: planlaşma, motivləşmə, təşkiletmə, nəzarət və istiqamətləndirmə əsas götürülür.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.455.

161. İdarəetmə prinsiplərinə görə, "motivləşmə" hansı mexanizm anlayışına daxil edilir?

A) iradların təsdiqlənməsi
B) konkret iş növünün yerinə yetirilməsi
C) fəaliyyəti nəticəsində müsbət göstəricilərə nail olması
D) idarəetmədə təcrübə prinsipləri
E) işin yerinə yetirilməsində cavabdehlik hissinin yaranması

Əsas idarəetmə prinsiplərinə aid olan "motivləşmə" işçilərə verilən mükafatların və edilən iradların təsdiqlənmiş strukturudur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.455.

162. Kollektivin sosiomədəniyyətinin təyin edilməsində hansı amil nəzərə alınmır?

A) əvvəlki iş yerindən işçiyə verilən rəy
B) işçinin öz iş yerinə münasibəti
C) firmadaxili sosial kommunikabelliyi
D) idarəetmə mədəniyyəti
E) əxlaq

TNSX.AZ DƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Kollektivin sosiomədəniyyəti sistemli dinamik amillərin vasitəsilə təyin edilir.  Bu amillərə aiddir :  işçinin öz iş yerinə münasibəti, firmadaxili sosial  kommunikabelliyi, idarəetmə mədəniyyəti, əxlaqı .

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.468.

163.  Bunlardan hansı kadrlar üzrə menecerin funksiyasına daxil deyildir?

A) beynəlxalq müqavilələrin tərtibi
B) əmək müqavilələrinin tərtibi
C) təhlükəsiz əmək şəraitinin yaradılması
D) mütəxəssislərin attestasiyasına nəzarət
E) əmək intizamına riayət

Kadrlar üzrə menecerin əsas funksiyalarına aiddir:  təşkilatın kadrlarla təmin edilməsi, əmək müqavilələrinin tərtibi, təhlükəsiz əmək şəraitinin yaradılması, mütəxəssislərin attestasiyasının aparılması, əmək intizamına riayət, əməyin mühafizəsinin təmin edilməsi.

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.469.

164.  Kadrlar üzrə menecerin seçilməsi prosesinə əsaslanan ardıcıllıqda hansı göstərici əsas sayılmır?

A) seçiləcək işçinin sosial - psixoloji durumu
B) əmək bazarının müəyyən edilməsi
C) namizədlərin vəzifələrə görə toplanması,
D) əmək müqaviləsi layihəsinin hazırlanması
E) işə qəbul olunan işçi ilə əmək müqaviləsinin bağlanması

Kadrlar üzrə menecerin seçilməsi prosesi müəyyən ardıcıllığa əsaslanır : hər hansı konkret vəzifəyə namizədin formalaşması, əmək bazarının müəyyən edilməsi, namizədlərin vəzifələrə görə toplanması, əmək müqaviləsi layihəsinin hazırlanması,  əmək müqaviləsinin bağlanması.

Ədəbiyyat:  M.Vəliyeva, Ş.Cabbarova  "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.471.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

165.  Əczaçılıq təşkilatlarında menecerlərin strateji funksiyası dedikdə nə başa düşülür?

A) iş planın tərtibi
B) cari istiqamətləndirmə
C) nəzarət
D) kadrların idarə edilməsi
E) stimullaşdırma

Kadrlar üzrə menecerin strateji funksiyası dedikdə  onların fəaliyyətlərinin məzmunu başa düşülür, yəni məqsədin qoyulması, strategiyanın hazırlanması, iş planlarının tərtibi.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.482.

166. Əczaçılıq təşkilatlarında menecerlərin ekspert - innovasiya funksiyasında hansı fəaliyyət əsas sayılmır?

A) strategiyanın hazırlanması
B) yeni iş formasının işlənməsi
C) yeniliklə tanışlıq
D) təşkilatı yenidənqurma
E) məsləhət

Kadrlar üzrə menecerin ekspert- innovasiya funksiyası dedikdə onların aşağıdakı fəaliyyətləri nəzərə alınır: yeni iş formasının işlənməsi, yeniliklə tanışlıq, təşkilatı yenidənqurma, məsləhət.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.482.

167. Əczaçılıq təşkilatlarında menecerlərin kommunikasiya funksiyalarına hansı fəaliyyət növü aiddir?

A) zənglərə cavab
B) iş yerində rahat psixoloji iqlim yaratmaq
C) ənənələri qoruyub saxlamaq
D) yeniliyin həyata keçirilməsində kollektivi həvəsləndirmə
E) kadrların attestasiya işi ilə məşğul olmaq

Əczaçılıq təşkilatlarında kadrlar üzrə menecerlərin kommunikasiya funksiyalarına aşağıdakılar aiddir : gələnlərin qəbulu, məktub və zənglərə cavab, danışıqların aparılması.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.482.

168. Hazırda əczaçılıq bazarında "topdansatış ticarət" anlayışı hansı sözlə əvəz olunur?

A) distribüsiya
B) logistika
C) institusional ticarət
D) korporativ ticarət
E) tender vasitəsilə ticarət

Hazırda əczaçılıq bazarında "topdansatış ticarət "anlayışı yeni "distribüsiya" – (ingilis sözü "distribütion" – "bölüşdürmə" ) sözü ilə əvəz olunmuşdur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.87.

SNCK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

169. Bunlardan hansı topdansatış ticarətin yayım kanalınıın tipini xarakterizə edir?

A) məhsulun istehsalçıdan istehlakçıya topdansatış vasitəçilərin iştirakilə çatdırılması
B) məhsulun istehsalçıdan istehlakçıya pərakəndə satıcılar vasitəsilə çatdırılması
C) məhsulun istehsalçıdan istehlakçıya xırda topdansatış yolu ilə çatdırılması
D) məhsulun istehsalçıdan birbaşa istehlakçıya çatdırılması
E) məhsulun istehlakçıya mümkün qədər maksimal sayda satış təşkilatlarından istifadə etməklə çatdırılması

Malın yeridilməsi logistikası və ya blüşdürücü logistikanın əsas məqsədi əczaçılıq məhsulları və xidmətinin paylanması işinin təşkilidir. Logistik kanalın logistik zənciri bazar seqmentində topdansatış vasitəçilərin iştirakilə çatdırılmasından ibarətdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.59.

170. Selektiv topdansatış ticarət necə həyata keçirilir?

A) satış məhdudiyyət yolu ilə aparılır
B) əmtəələrin səyyar ticarət yolu ilə satışı həyata keçirilir
C) əmtəələrin satışı qeyri - məhdudiyyət xarakteri daşıyır
D) əmtəələrin satışı sərgilərdə təşkil edilir
E) əmtəələrin satışı seçmə yolu ilə həyata keçirilir

Selektiv bölüşdürmə bölüşdürücü müəssisələrin sayına məhdudiyyəti nəzərdə tutur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.60.

171. Əczaçılıq məhsullarının yeridilməsinin sıfır səviyyəli kanalının göstəricisi hansıdır?

A) əczaçılıq məhsullarının istehsalçısı, son istehlakçı
B) son istehlakçı, pərakəndə şəbəkə və istehsalçı
C) istehsalçı, distribüter, pərakəndə aptek şəbəkəsi və son istehlakçı
D) istehsalçı,topdansatış vasitəçi, aptek və son istehlakçı
E) istehsalçı, nəqliyyat, aptek və alıcı

Malın hərəkəti prosesində iştirak edən vasitəçilərin sayı kanalın səviyyəsini müəyyən edir. Kanalların birbaşa vasitəçiləri olmadığına görə onları sıfırıncı səviyyəli kanallar adlandırırlar.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.59.

SNSF.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

172. Hansı növ maddələr prekursorlar adlanır?

A) narkotik və psixotrop dərman vasitələrinin alınmasında istifadə olunan ilkin maddələr
B) farmakoloji fəallığa malik ilmayan maddələr
C) hormanların alınmasında istifadə edilən maddələr
D) enzimlərin alınmasında istifadə edilən maddələr
E) orqanizmdə fəallaşaraq təsir göstərən maddələr

Prekursorlar – narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzlarıdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.14.

173. Bunlardan hansı dövlət reyestrində göstərilir?

A) istehsalına icazə verilmiş, dövlət qeydiyyatına alınan dərman vasitələri
B) prekursorlar
C) narkotik və psixotrop vasitələr
D) farmakopeyaya daxil olan dərman vasitələri
E) dövriyyəsinə nəzarət olunmayan dərman vasitələri

Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış dərman vasitələri Azərbaycan Respublikası dərman vasitələrinin Reyestrinə daxil edilir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.32.
"Dərman vasitələri haqqında" qanun.06.02.2007.

174. Bunlardan hansı dərman vasitələrinin içlik (təlimat) vərəqəsində əks etdirilmir?

A) təsiredici maddənin miqdarı və keyfiyyət təyininin üsulu
B) dərmanın yararlılıq müddəti
C) dərmanın saxlanılma şərtləri
D) dərmanın buraxılma şərtləri
E) dərman vasitəsinin tətbiqi zamanı təhlükəsizlik tədbirləri

Dərman vasitəsinin təlimat vərəqəsində təsiredici maddənin miqdarı və onun keyfiyyət analizinin təyini göstərilmir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.180.

175. Bunlardan hansı narkotik vasitələrin hazırlanmasında istifadə edilən yardımçı kimyəvi maddələrdir?

A) prekursorlar
B) orijinal preparatlar
C) generiklər

SUSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

D) prebiotiklər
E) prodərmanlar

Azərbaycan Respublikasının ərazisindən idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan IV siyahıda göstərilən prekursorlar narkotik və psixotrop maddələrin hazırlanmasında istifadə olunan əsas və yardımçı kimyəvi maddələrdir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.685.

176. Göstərilən prekursorlardan hansına Azərbaycan Respublikasının ərazisindən idxalına, ixracına, tranzit nəql olunmasına və istehsalına lisenziya tələb olunur?

A) Aseton
B) Benzol
C) Qliserin
D) Metanol
E) Butanol

Asetonun Azərbaycan Respublikası ərazisindən idxalına, ixracına, tranzit nəql olunmasına və istehsalına lisenziya tələb olunur.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.685.

177. Aptek köşkünün fəaliyyətinə bunlardan hansı aid deyil?

A) həkimin resepti üzrə dərmanların satışı
B) müalicəvi mineral suların satışı
C) dietik və uşaq qidalarının satışı
D) reseptsiz buraxılan dərman vasitələrinin satışı
E) təcili hallarda istifadə olunan dərman vasitələri

Aptek köşkünün əsas vəzifəsi - əhaliyə reseptsiz sadə dərman vasitələrini, sanitariya- gigiyenik əşyaları, uşaq qidalarını, müalicəvi mineral suları, dərman bitkilərini və başqa tibbi təyinatlı ləvazimatları pərakəndə ticarət qaydasında satmaqdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.143.

178. Bunlardan hansı aptek məntəqəsinin fəaliyyətinə aid deyildir?

A) dərman formasının hazırlanması
B) reseptsiz və resept üzrə dərmanların satışı
C) şəxsi gigiyena vasitələrinin satışı
D) uşaq qidalarının satışı
E) dietik qidaların satışı

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Aptek məntəqəsinin əsas vəzifəsi - əhaliyə dərmanların hazırlanması istisna edilməklə, reseptsiz və həkimin resepti əsasında dərmanların buraxılması, həmçinin dərman bitkiləri, uşaq və dietik qida məhsulları, şəxsi gigiyena məhsulları, bioloji aktivliyə malik qida əlavələri və bu kimi digər malları pərakəndə ticarət qaydasında satmaqdır.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.142.

179. Bu dərman vasitələrindən hansı reseptsiz buraxılır?

A) Aserprolis
B) Fenobarbital
C) Efedrin
D) Meprobamat
E) Prazepam

Aserprolis – bitki tərkibli, propoliuslu boğaz spreyidir. Ondan fərqli olaraq, göstərilən digər dərman vasitələri psixotrop təsirlidir.

Ədəbiyyat: M.Vəliyeva, Ş.Cabbarova "Əczaçılığın idarəolunması və iqtisadiyyatı". Bakı-2013, səh.684.

180. Aptek təşkilatlarinında ödənişsiz reseptin əsas hissəsi hansı müddət ərzində saxlanılmalıdır ?

A) 3 il
B) 3 ay
C) 1 il
D) 6 ay
E) 5 il

Aptek təşkilatlarında ödənişsiz reseptlərin əsas hissəsinin saxlanılma müddəti 3 ildir. Saxlanılma müddəti bitən reseptin əsas hissələri arxivləşdirilir.

Ədəbiyyat: Azərbaycan Respublikası Səhiyyə Nairliyinin Kollegiyasının 11.01.2018-ci il qərarı "Aptek təşkilatlarına dair tələblər və aptek təşkilatlarından dərman vasitələrinin buraxılması qaydaları".

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN